# MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANDA KİTABXANA QURUCULUĞU

**Mehmanəli Məmmədov**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Kitabxanaşünaslıq kafedrasının dosenti*
*m.mehmanali@gmail.com*

***Xülasə:*** *Azərbaycanın müstəqilliyi illərində xalq təsərrüfatın bütün sahələrində olduğu kimi mədəniyyət, o cümlədən kitabxana işi sahəsində böyük dəyişikliklər baş vermişdir. Ölkə kitabxanaları müstəqilliyimizin ilk illərində çıxılmaz vəziyyətə düşsələr də, qısa müddətdə öz işləridə dönüş yarada bilmiş və kitabxana işini günün tələbləri səviyyəsində qurmağa nail ola bilmişlər. Bu da şübhəsiz ki, ölkə rəhbərliyinin kitabxana işinə göstərdiyi qayğının nəticəsi kimi qiymətləndirilməlidir. Belə ki, 1993-cu ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi və qısa müddətdə dörd dəfə M.F.Axundov adına Milli Kitabxanada olması, kitabxana işinin inkişafına çox böyük təsir göstərmişdir. Elmi məqalədə məhz ulu öndərin müstəqillik illərində kitabxana işinə dair imzaladığı qanun, qərar, sərəncamlar təhlil edilmiş və bu gün ulu öndərin fəaliyyətini davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin kitabxana işi sahəsindəki uğurlarına aydınlıq gətirilmişdir.*

***Açar sözlər:*** *mədəniyyət, kitab, kitabxana, kitabxana quruculuğu, qanun, qərar, göstəriş, sərəncamlar*

**Giriş.** İctimai-siyasi hadisələrin sürətlə inkişaf etdiyi hazırkı bazar iqtisadiyyatı şəraitində hər bir dövlətin intellektual səviyyəsini xarakterizə edən ən əsas atributlardan biri onun informasiya resurslarını toplayan, mühafizə və səmərəli istifadə edən kitabxanalarıdır.

Mədəni insan cəmiyyət yarandığı gündən informasiya istehsal etmiş və ən erkən dövrlərdən bu informasiyanın toplanması, saxlanılması, öyrənilməsi və ötürülməsi ilə məşğul olmağa başlamışdı. Tarixi təkamülün sonrakı mərhələlərində də təhsil, eləcə də biliklərin əldə edilməsi insan cəmiyyətinin toplamış olduğu elmi biliklərin öyrənilməsinə yönəldilmişdi və bu proseslərin bütün səviyyələrində kitabxana faktoru iştirak etmişdi. Tarixi təcrübə göstərir ki, insan cəmiyyəti daha çox elmi biliklər əldə etdikcə tədris prosesi bir o qədər mürəkkəbləşir və təkmilləşirdi. Bu qarşılıqlı əlaqə müasir dövrümüzə qədər öz asılılığını qoruyub saxlamış və özünün ən mükəmməl və mürəkkəb şəklini hələ də axtarmaqdadır. Kitabxanalar müasir elm və təhsil sisteminin daim daxili strukturunda olmuşdur və təcrübə sübut edir ki, kitabxana-informasiya fəaliyyəti olmadan nə təhsilin, nə də keyfiyyətli elmi inkişafın həyata keçirilməsi mümkün deyil.

İnkişafın tarixi xarakteristikası elmi biliklərin mübadiləsi və əməkdaşlıq vasitəsi ilə təkmilləşdiyini göstərir. Kitabxana isə bu prosesin əsas infrastruk-

turu kimi iştirak edir. Zəngin tarixi inkişaf yolu keçmiş kitabxanalar qarşılıqlı mübadilə və əməkdaşlığın nəticəsi olaraq müasir informasiya məkanını formalaşdırmışdır və inteqrasiya prosesləri bu gün də informasiya cəmiyyətinin bir nömrəli vəzifəsi kimi qarşıda durur və mürəkkəb inteqrasiya prosesləri, əməkdaşlıq və mübadilə prosesləri son dərəcə mürəkkəb sosial, kulturoloji, texnoloji problemləri gündəmə gətirməkdədir.

Elm və təhsilin yeni imkanlar hesabına sürətlə inkişafı qlobal cəmiyyətin tələbi kimi sürətlənirsə də digər tərəfdən inkişaf edən elm və təhsil qloballaşmanı sürətləndirir. Nəticədə qarşılıqlı stimullaşdırma misli görünməmiş informasiya kütləsini bir tərəfdən istehsal edir, onun toplanması və emalını tələb edir, digər tərəfdən onun mühafizəsini və daim (operativ) istifadəyə verilməsini tələb edir. Bu qarşılıqlı stimullaşdırma qlobal informasiya məkanını xarakterizə edir və XXI əsr informasiya əsri olaraq bu münasibətlərin məcmusunda müəyyənləşir.

**Məsələnin qoyuluşu.** Azərbaycan Respublikasında kitabxana işi qədim tarixə malik olsa da, yeni mərhələyə 1990-cı ildən daxil olmuşdur. Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra uzun müddət yuxarıların göstərişi əsasında işləməyə alışmış kitabxanalar bir müddət tərəddüd keçirsələr də, sonrakı mərhələdə öz işlərində dönüş yarada bilmiş və qısa müddət ərzində ölkədə kitabxana işini dövrün tələblərinə uyğun qura bilmişlər. Bu da bilavasitə Azərbaycan dövlətinin kitabxanalara göstərdiyi qayğının nəticəsində baş vermişdir. Belə ki, 1993-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi, xalq təsərrüfatının bütün sahələrində, o cümlədən kitabxana işində də müsbət dəyişikliklərə səbəb olmuşdur. Məhz bu dövrdə ölkədə kitabxana işinin inkişaf strategiyası və dövlət siyasəti müəyyənləşdirilmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1995-1997-ci illərdə 4 dəfə Azərbaycan Milli Kitabxanasında olmuş və ölkədə kitabxana işinin inkişafına əvəzsiz töhvələr vermişdir. Heydər Əliyev Milli Kitabxanada olarkən demişdir: "Mən vaxtı ilə bu kitabxanaya dəfələrlə gəlmişəm. Amma bu gün kitabxananın astanasından keçərkən çox böyük hörmət və ehtiram hissi duyuram. Kitabxanaya, burda çalışan insanlara hörmət və ehtiramımı bildirmək istəyirəm". 1996-cı ildə ulu öndərin Milli Kitabxanada dediyi: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir" dahiyana sözləri ölkədə kitabxana işinin inkişafı üçün bir stimul olmuşdur.

Məlum olduğu kimi Heydər Əliyevin rəhbərliyi altında 1998-2000-ci illərdə "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Mədəniyyət haqqında", "Kitabxana işi haqqında", "Nəşriyyat işi haqqında qanun"lar qəbul edilmiş, 2003-cü ildə isə respublikamızda informasiya- kommunikasiya texnologiyalarının geniş tətbiq olunması və inkişaf etdirilməsi haqqında "Azərbaycanın inkişafı naminə İKT üzrə Milli Strategiya"nı (2003-2012-ci illər) təsdiq edilmişdir. "Kitabxana işi haqqında" Qanunun və Milli Strategiyanın qəbulundan sonra dövlət tərəfindən mövcüd sahələrdə bir sira kompleks tədbirlər



həyata keçirılmişdir. Belə ki, ötən dövr ərzində kitabxanaların maddi-texniki bazası yaxşılaşdırılmış, kitabxanaçıların əmək haqqı artmış, oxuculara xidməti sahəsində və digər sahələrdə xeyli uğurlar əldə edilmişdir.

Bu gün ulu öndərin mədəniyyət sahəsində məqsədyönlü siyasətini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir. 2003-cü il dekabrın 12-də BMT və YUNESKO-nun Cenevrədə keçirilən İnformasiya Cəmiyyəti üzrə Ümumdünya Sammitində Prezident İlham Əliyev çıxış edərək ölkəmizdə informasiya və kommunikasiya texnologiyalarının gündəlik həyatımızın tərkib hissəsinə çevrildiyini, informasiya və kompüter texnologiyaları üzrə müxtəlif layihələrin həyata keciriIdiyini bildirmiş və beynəlxaq auditoriyanı əmin etmişdir ki, Azərbaycan dövləti İnformasiya cəmiyyətinin qurulması istiqamətində bütün imkanlardan istifadə edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin "Azəraycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekkabr tarixli sərancamına əsasən ümumi sayı doqquz milyona yaxın ədəbiyyat çap olunmuş və pulsuz ölkə kitabxanalarına paylanmışdır. Hazırda kütləvi kitabxanaların əsas fondunu məhz bu nəşrlər təşkil edir.

2005-ci ilin noyabr ayında İnformasiya cəmiyyəti üzrə Ümumdünya Sammitinin Tunis mərhələsində Azərbaycan Respublikasının nümayəndə heyəti də fəal iştırak etmişdir. İnformasiya cəmiyyəti üzrə Cenevrə və Tunis sammitlərindən sonra Azərbaycanda cəmiyyətin sənəd-informasiya tələbatının, o cümlədən tələbatçıların ədəbiyyata olan marağını daha dolğun şəkildə ödənilməsi və bu işdə informasiya və kommunikasiya texnologiyalarından səmərəli istifadə sahəsində bir sıra ciddi addımlar atılmışdır. Belə ki, ölkə başçısı "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", eyni zamanda Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin ən yaxşı nümunələrinin təbliği məqsədilə "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamlar imzalayaraq yenidən çap edilən kitabların bütün kütləvi və orta tədris müəssisələrindəki kitabxanalara verilməsini, bu kitabların mətnlərinin elektron daşıyıcılar və internet vasitəsilə yayılmasını təmin etmək, latın qrafikasında Azərbaycan ədəbiyyatının virtual kitabxanasının yaradılması haqqında tapşırıqlar verılmişdir. Azərbaycan Respublikasının inkişaf naminə informasiya – kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər) əsasında "Azərbaycan Respublikasında ümutəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı" (2005-2007-ci illər) kimi mühüm əhəmiyyətli sənəd təsdiq edilmişdir. Proqramda dünya təhsil sisteminə inteqrasiya olunmaq, ölkə əhalisinin informasiyalaşdırılmış cəmiyyətə hazırlamaq məqsədilə kompüter texnikası əsasında qurulan yeni informasiya texnologiyalarının mənimsənilməsi və onun bütün imkanlarından istifadə olunması üçün elektron dərsliklərin, elektron kitabxanaların işlənib hazırlanması və digər bu kimi məsələlər xüsusi olaraq qeyd

edilmişdir. Ölkə başçısının kitabxanaların fəaliyyətinin Azərbaycan informasiya cəmiyyətinə doğru əhatəli inkişaf perspektivlərini, və eləcə də Azərbaycan kitabxanalarının dünya informasiya məkanına daxil olunmasının təmin edilməsi məqsədilə imzaladığı "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" 2007-ci il 20 aprel tarixli sərəncamı və bu sərəncamdan irəli gələn "Azərbaycan Pespublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" kitabxanaların inkişafında strateji əhəmiyyətli sənədlərdir.

Bu mühüm sənədlərdə kitabxana işi kompleks halda götürülmüş, onun Azərbaycan elm və mədəniyyəti tarixində, xalqımızın maariflənməsində, mədəni və intellektual səviyyəsinin yüksəldilməsində, təhsil və tərbiyəsində rolu və əhəmiyyəti geniş şəkildə şərh edilmiş, Azərbaycan kitabxanaları "Azərbaycan xalqının milli sərvəti" kimi qiymətləndirilmişdir. Prezidentin sərəncamında olduqca mühüm bir problemə xarici ölkələrin böyük milli kitabxanalarında saxlanılan qiymətli Azərbaycan kitablarının müəyyənləşdirilib respublikamıza gətirilməsi probleminə toxunulmuşdu. Artıq bu problem də öz geniş miqyaslı həllini tapmaqdadır.

Dövlət Proqramına müvafiq olaraq respublikamızda bir sıra işlər görülmüşdür. Belə ki, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının veb-saytı yenilənmiş, elektron kataloqu və elektron kitabxanası, elektron məlumat bazaları yaradılmış və oxucuların istifadəsinə verilmiş, kitabxanada virtual sifariş xidməti tətbiq edilmiş, kitab, qəzet və jurnalların rəqəmsallaşdırılması və oxuculara elektron informasiya xidmətin göstərilməsi, oxucu qeydiyyatı və kitab sifarişi proseslərinin avtomatlaşdırılması həyata keçirilmişdir. Hazırda hər bir oxucu nəinki Milli Kitabxananın, eyni zamanda Türkiyə Milli Kitabxanasının, Fransa Milli Kitabxanasının, hətta ABŞ-ın Konqres Kitabxanasının fond və kataloqlarında da birbaşa axtarış aparmaq imkanına malikdir. Rusiya Dövlət Kitabxanasının Dissertasiyaların virtual oxu zalından və Azərbaycanda müdafiə olunmuş dissertasiyaların elektron məlumat bazasından istifadə imkanlarının yaradılması magistr, doktorant və digər elmi tədqiqatçılar üçün böyük əhəmiyyətə malikdir. Bu proses başqa kitabxanalarda da davam etdirilmişdir.

2007-ci il Prezident sərəncamına müvafiq olaraq Azərbaycan Respublikası Elmlər Akademiyası üçün yeni bir kitabxana binasının tikintisi nəzərdə tutulmuş və 2011-ci ildə kitabxana binasının təməlqoyma mərasimi, 2014-cü ildə isə kitabxananın açılışı olmuşdur. Açılış mərasimində iştirak edən ölkə Prezidentinə kitabxananın mütəxəssis işçi heyəti tərəfindən hazırlanmış "Vahid idarəetmə sistemi" təqdim olunmuşdur. Vahid İdarəetmə Sistemi müəssisənin bütün mümkün proseslərinin avtomatlaşdırılması, inteqrasiyası, nəzarətdə saxlanılması və mərkəzləşdirilmiş şəkildə idarəedilməsi sistemidir. Sistemin "Kataloqlaşdırma", "Komplektləşdirmə", "Fondlarda resursların yerləşdirilməsi", "İstifadəçilərin qeydiyyatı", "Resursların axtarışı", "Hesabatların hazırlanması", "Proseslərə nəzarət", "Sifarişlərin verilməsi" modulları vardır. Əlavə olaraq Təşkilatı strukturun idarə edilməsi modulu və davamiyyət, icazələrin alınması və nizam-intizam modulu hazırlanıb istifadəyə verilmişdir. Yeni modulların yaradılması istiqamətində müxtəlif işlər aparılır. Mərkəzi Elmi Kitabxanaya daxil olan bütün obyekt və subyektlər Vahid İdarəetmə Sisteminin müvafiq modulunda öz əksini tapır. Vahid İdarəetmə Sistemi MARK 21formatını dəstəkləyir. Vahid İdarəetmə Sistemi Mərkəzi Elmi Kitabxananın öz məhsulu olduğu üçün sistemdə istənilən dəyişikliyi edə bilər. Sistemin gələcəkdə daha da təkmilləşdirilməsi və ölkənin digər kitabxanalarında tətbiqi nəzərdə tutulur.



Dövlət başçısının respublikamızın ən böyük bilik xəzinəsi olan Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinin keçirilməsinə dair 24 iyul 2013-cü il tarixli sərəncamı dövlətimizin kitabxana işinə diqqət və qayğısının təzahürüdür. Hazırda 100 illik yubileyinə hazırlaşdığımız Milli Kitabxana oxuculara təkcə Azərbaycanın deyil, dünya kitabxanalarının informasiya resurslarını da təqdim edir. Dünyanın 60-dan çox ölkəsi ilə beynəlxalq əməkdaşlıq və kitab mübadiləsi həyata keçirən Milli Kitabxana Türk dilli ölkələrin milli kitabxana direktorları şurası, Avropa Milli Kitabxanaları konfransı, TÜRKSOY, Avrasiya Kitabxanalar Assambleyası, İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Milli Kitabxanaları şurası, Avrasiya Kitabxanaçılar Birliyi və başqa təşkilatlarla birgə təşkil edilən qlobal tədbirlərə ev sahibliyi edir və beynəlxalq əlaqələrini genişləndirir.

**Nəticə.** Azərbaycanda dövlət siyasətinin əsas prioritetlərindən biri informasiya cəmiyyətinin qurulması hesab olunur. Müasir dövrdə Azərbaycan kitabxanaları sosialist quruculuğu dövründə formalaşan ideoloji buxovlardan azad edilmiş, kitabxana fəaliyyəti demokratikləşmə, milliləşmə və azərbaycanlaşma prinsipləri əsasında yenidən formalaşmışdır. Hazırda dövlətin qayğısı ilə kitabxanalarda müasir informasiya texnologiyalarının tətbiqilə onların dünya informasiya məkanına inteqrasiyası istiqamətində işlər görülməkdədir. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"da bu siyasətin əsas istiqamətləri müəyyən olunmuşdur.

Azərbaycanda həyata keçirilən kitabxana informasiya siyasəti bunu söyləməyə imkan verir ki, respublikamızda kitabxanaçılıq sahəsi dövlət qayğısı ilə əhatə olunmuş, yeni informasiya texnologiyalarının tətbiqi və inkişaf perspektivləri kifayət qədər əlverişlidir. Bu siyasət sayəsində planetin kitabxana informasiya şəbəkəsindən istifadə edə bilən hər bir oxucu Azərbaycanın mədəni sərvətləri ilə tanış olmaq imkanına malikdir. Azərbaycan kitabxana mədəniyyətinin İnternet şəbəkəsi vasitəsilə "ixrac edilməsi" isə Azərbaycan xalqı ilə, onun mədəniyyəti və ənənələri ilə tanış olmaq, beynəlxalq ictimaiyyətin diqqətini ölkəmizə cəlb etmək məsələlərində öz müsbət nəticələrini verəcəkdir.

Hazırda Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycan tranzit informasiya mərkəzinə çevrilib. Qərblə Şərq arasında elmi, mədəni, iqtisadi əlaqələrin inkişaf etdirilməsinə yönəlmiş "Virtual İpək yolu" layihəsi uğurla həyata keçirilir. Məlumdur ki, elmi tutumlu informasiyanın 80 faizi Qərbdə toplanır. Həmin informasiyanın 20 faiz istifadəçisi məhz Şərqdədir. Buna görə də qlobal

informasiya məkanına çıxışı olan Azərbaycan kitabxanaları həmin informasiyanın mübadilə vasitəsinə çevirmək üçün ən real imkanlara malikdir. Azərbaycan Respublikasında kitabxana, İKT, elm və təhsil sahəsində aparılan islahatların yüksək keyfiyyətlə həyata keçirilməsində, Azərbaycan elminin və təhsilinin səviyyəsinin dünya standatlarının tələblərinə uyğunlaşdırılmasında, milli kadrlarımızın inkişaf etmiş dövlətlərin aparıcı elmi-tədqiqat və təhsil mərkəzlərinin qabaqcıl təcrübəsindən istifadə edilməsində bir sıra işlər görülüb və bu ənənə getdikcə təkmiləşdirilir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. – B.: Azərbaycan, 1996. – 55 s.
2. Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqıda Azərbaycan Respublikası Prezidentinin sərəncamı, Azərbaycan// 2007, 20 aprel
3. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin sərəncamı// Azərbaycan, 2008, 7 noyabr
4. Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu. – B., 1998. – 16 s.
5. Elektron imza və elektron sənəd haqqında Azərbaycan Respublikasının Qanunu// Azərbaycan qəzeti, 10 mart 2004-cü il
6. Kitabxanalar biliklər cəmiyyətində. – B.: NURLAR, 2006. – 515 s.
7. Azərbaycan Milli Kitabxanası. – B.: Təhsil, 2013. – 157 s.
8. Əhmədov E. Y. Azərbaycanda kitabxana-informasiya işinin hüququ bazası. – B., 2012. – 212 s.
9. Əliquliyev R.M.,İmamverdiyevY.N.Rəqəm imzası texnologiyası. – B.: Elm, 2003. – 130 s.


***Rəyçi:** p.ü.f.d., dos.* ***E.Əhmədov***